## İKT ilə bağlı həyata keçirilən davamlı tədbirlərin məntiqi nəticəsi

Vergilər Nazirliyinin İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin Dövlət qeydiyyatının təşkili şöbəsinin rəisi İftixar Axundov:

- RİTN-nin Vergilər Nazirliyinə yüksək dəyər verməsini vergi sistemində İKT ilə bağlı həyata keçirilən davamlı tədbirlərin məntiqi nəticəsi sayıram. Son illər ərzində Vergilər Nazirliyi tərəfindən elektron xidmətlərlə bağlı davamlı islahatlar aparılır. «Elektron Azərbaycan» layihəsi çərçivəsində nazirlik tərəfindən 2011-2012-ci illərdə həyata keçirilmiş e-qeydiyyatla bağlı islahatların əhəmiyyətini danmaq mümkün deyil. Bu islahatlar 2008-ci ildən tətbiq edilmiş və beynəlxalq işgüzar aləmdə müsbət rezonansa səbəb olmuş «bir pəncərə» islahatının məntiqi davamıdır. «Bir pəncərə» sisteminin tətbiq olunması sahibkarlıq sektorunda daha asan və geniş fəaliyyət üçün imkanlar yaratmış, sahibkarlıq fəaliyyətinə başlayan şəxslərin sayının artmasında mühüm rol oynamışdır. Ötən il iyulun 1-dən fiziki şəxslərin elektron qeydiyyatına başlanması Vergilər Nazirliyi tərəfindən əhaliyə göstərilən elektron xidmətlərin genişləndirilməsi istiqamətində həyata keçirilən islahatların növbəti mərhələsidir və bu, ölkənin işgüzar həyatına öz müsbət təsirlərini göstərməkdədir. Fiziki şəxslərin onlayn qeydiyyatı vaxt itkisinin və məsrəflərin qarşısının alınması, vətəndaş-məmur təmaslarının azaldılması baxımından mühüm əhəmiyyət kəsb edir.

İftixar Axundovun sözlərinə görə, «e-qeydiyyat» sisteminin tətbiq edildiyi tarixdən indiyədək Azərbaycanda 52,3 min fərdi sahibkarın qeydiyyatı bu üsulla aparılıb. 2012-ci ilin əvvəlindən indiyədək isə 42,2 min fərdi sahibkar elektron qaydada qeydiyyata alınıb ki, bunların da ümumi qeydiyyatda xüsusi çəkisi 66,8% təşkil edir. İslahatların növbəti mərhələsi kommersiya hüquqi şəxslərin «e-qeydiyyatı»nın tətbiqi ilə bağlı olub. 2012-ci il fevralın 6-dan kommersiya hüquqi şəxslərin «e-qeydiyyatı»na start verilib. Kommersiya hüquqi şəxslərin elektron qeydiyyatı vergi ödəyiciləri ilə vergi orqanları arasında münasibətlərin sadələşdirilməsinə, səmərəliliyin artırılmasına xidmət etməklə yanaşı, göstərilən xidmətlərin optimal vaxtda internetə çıxışı olan istənilən yerdən həyata keçirilməsinə, sahibkarların vergi orqanlarına gəlmə asılılığının minimuma endirilməsinə, vergi ödəyiciləri ilə fiziki əlaqə formasının məhdudlaşdırılmasına, eyni zamanda həm vergi ödəyicilərində, həm də vergi orqanlarında vaxt və maddi resurs sərfiyyatının azaldılmasına imkan verir. «E-qeydiyyat» vergi ödəyicilərinin xərclərinin də xeyli azalmasına səbəb olmaqla bərabər, şəffaflığın artmasına əlverişli zəmin yaradıb.

İ.Axundov indiyədək Vergilər Nazirliyində 718 kommersiya hüquqi şəxsin qeydiyyatının elektron üsulla aparıldığını, təkcə noyabr ayında qeydiyyata alınmış hüquqi şəxslərin 40%-nin e-qeydiyyatdan keçdiyini bildirmişdir: «Göründüyü kimi, kommersiya hüquqi şəxslərin e-qeydiyyatının tətbiqi getdikcə sürətlənməkdədir. Bütün bu amilləri nəzərə alan müxtəlif ictimai qurumlar, dövlət təşkilatları Vergilər Nazirliyinin elektron xidmətlərlə bağlı həyata keçirdiyi sistemli və davamlı islahatları yüksək qiymətləndirirlər.